# *FİLOLOGİYA ELMLƏRİ*

## Tənqidçi şəxsiyyəti Şamil Salmanovun tədqiqat predmeti kimi

**Rəqsanə Hidayət qızı Zeynalova**
*Sumqayıt Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** rqsan@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. M.B. Mustafayev,
filol.ü.f.d., dos. D.A. Cümənov

**Açar sözlər:** tənqidçi şəxsiyyəti, ədəbi proses, ədəbi irs, fərdi yaradıcılıq üslubu
**Ключевые слова:** личность критика, литературный процесс, литературное наследие, индивидуальный творческий стиль
**Key words:** critic’s personality, literary process, literary heritage, individual creative style

Tənqidçi şəxsiyyəti birbaşa ədəbi proseslə bağlıdır. Ədəbi proses çoxşaxəli, mürəkkəb, ziddiyyətli bir yaradıcılıq prosesidir. Həmin prosesdə yazıçı, tənqidçi şəxsiyyəti, ictimai mühit və bədii qəhrəman problemi, ictimai-ədəbi və sosial şərait və tənqidçi mövqeyi bir-biri ilə qovuşur, vəhdət təşkil edir. Ədəbi-bədii prosesin öz qanunauyğunluqları, bir sıra spesifik xüsusiyyətləri var. Onu nizamlamaq, sistemləşdirmək, ədəbi təcrübədəki müsbət meyilləri üzə çıxarmaq, yaradıcılıq axtarışlarını ümumiləşdirmək vacib və zəruridir. Bu ədəbi-tarixi prosesin öndə gedəni, yol göstərəni, şübhəsiz, ədəbi tənqidçidir. Tənqidçi şəxsiyyəti, nüfuzu ədəbi prosesdə mühüm amil kimi çıxış edir. Ədəbi tənqid və ədəbiyyatşünaslığımızda kifayət qədər yaradıcı şəxsiyyətlər var ki, xalqımızın ədəbi düşüncəsinin elmi dərkində müstəsna xidmətlər göstəriblər.

Belə deyə bilərik ki, akademik Bəkir Nəbiyev də bu cür tənqidçilərin sırasındadır. Şamil Salmanovun “Tənqidçi və ədəbi proses (akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri)” monoqrafiyası Bəkir Nəbiyevin elmi-ədəbi və tənqidi irsini üzə çıxarmağa, sistemləşdirməyə xidmət edən sanballı bir araşdırmadır.

Keçən əsrin 60-cı illərində yenilənən tənqid cəbhəsini yaradanlardan biri də B.Nəbiyev idi. Yeni tənqidin strategiyasını açmaq üçün onun tənqidçilik fəaliyyətinin öyrənilməsi açar vasitələrdən biri idi ki, Ş.Salmanov “Tənqidçi və ədəbi proses” adlı tədqiqatında məhz bu işi görmüşdür. “*B.Nəbiyev tənqidi fikri əhəmiyyətli dərəcədə ədəbiyyatın yeni yaradıcılıq xüsusiyyətlərinə və imkanlarına yönəldir, ədəbiyyatın daxili, mənəvi qüvvəsinə, fikri-emosional və psixoloji qatlarına, müasirliyə, müasir insana doğru istiqamətləndirirdi”* (1, s. 101).

Kitaba yazdığı ön sözdə Yaşar Qarayev onun tənqidçilik fəaliyyətinə ümumiləşmiş qiymət verir. *“Jurnalistikadan ədəbiyyatşünaslığa və onların hər ikisinin sintezi kimi, buradan da ədəbi tənqidə – onun yaradıcılıqda keçdiyi yolun düsturu, formulu isə belə ifadə oluna bilər. Bu yolda tənqidin tərcümeyi-halı özünün məhz çeviklik və operativlik məziyyəti ilə daha qabarıq görünür. Onun həm yüksəliş və sabitlik, həm də narahatlıq, dramatizm və axtarışlar tarixini təkcə bu bioqrafiyanın timsalında izləmək olar”* (2, s. 5).

Monoqrafiyada B.Nəbiyevin anadan olması, təhsil illəri, ədəbi mühitdə tanınması, ayrı-ayrı onilliklərdəki yüksəlişi, elmi-ədəbi irsinin məzmun və sənətkarlıq tərəfləri geniş aspektdə tədqiqata cəlb olunur. Qətiyyətlə demək olar ki, bu monoqrafiyada müəllif təkcə bir şəxsiyyətin ictimai-ədəbi fəaliyyətini səciyyələndirməklə kifayətlənməmişdir. Belə olsaydı əsərin

əhəmiyyəti xeyli dərəcədə azalardı. Başlıca cəhət budur ki, monoqrafiyada ədəbi-nəzəri fikrimizin bütöv bir mərhələsi, təxminən tənqid və ədəbiyyatşünaslığımızın yarım əsrdən də çox böyük bir mərhələsi tədqiqat predmetinə çevrilib. Bizim fikrimizcə, bu əsər Bəkir Nəbiyevin elmi-ədəbi irsini əhatə edən fundamental bir tədqiqat əsəridir. Düzdür, indiyə qədər B.Nəbiyevin həyat və yaradıcılığı ilə bağlı xeyli sayda monoqrafiyalar, məqalələr yazılıb. Onların hər biri bu gün üçün aktual və gərəklidir. Diqqət etsək görərik ki, bu əsərlərdə Bəkir Nəbiyevin yaradıcılığının müxtəlif aspektləri təhlil olunub. Şamil Salmanovun bu monoqrafiyası isə birbaşa ədəbi proseslə bağlıdır, tənqidçinin ədəbi proses daxilindəki fəaliyyətini aydınlaşdırmağa xidmət edir.

Şamil Salmanov mətbuat materiallarına əsaslanaraq belə nəticəyə gəlir ki, B.Nəbiyev elmi-ədəbi fəaliyyətə 1954-1958-ci illərdən başlayıb. İlk elmi yaradıcılıq nümunələri olan bu məqalələrdə O.Sarıvəllinin “Ana”, M.Gülgünün “Yadigar ürək”, N.Gəncəlinin “Könüllər açılanda” poemaları təhlil olunub. Alimin tələbəlik illərində dərc olunan bu məqalələrini Ş.Salmanov professional, yetkin məqalələr hesab etmir. Lakin bir məsələyə diqqəti cəlb edir ki, bu əsərlər nəzəri-estetik fikrin təcrübəsindən faydalanmaqla, daxili bir ehtiras və ilhamla elmi təhlilə cəlb olunan araşdırmanın nəticəsi kimi meydana çıxmışdı. Ş.Salmanovun qeyd etdiyi bu keyfiyyətlər Bəkir Nəbiyevin tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyətində öz təsdiqini tapdı.

Bəkir Nəbiyevin tələbəlik illərindən sonrakı fəaliyyətini izləyən Şamil Salmanov “Azərbaycan gəncləri”, “Kommunist” qəzetində işləməsinin onun tənqidçilik fəaliyyətində müsbət rol oynadığını göstərir. Bu illərdə o daha çox çalışıb, ardıcıl olaraq məqalələri dərc edilib, ədəbi mühitdə tanınmağa başlayıb, sənət və ədəbiyyat oxucuları ilə müntəzəm görüşüb. Eləcə də bu zaman kəsiyində təkcə bədii yaradıcılıqla məşğul olmayıb, xeyli sayda tərcümələr edib, teatr və kino tamaşaları haqqında resenziyalar yazıb. Bu fəaliyyət onun tənqidçilik istedadının cilalanmasına yaxından kömək edib. “Kənd həkimi” məqaləsi ilə ədəbi tənqidə gələn B.Nəbiyev S.Rəhimovun “Şamo” romanı, Ə.Kərimin yaradıcılığı, S.Qədirzadənin “Sarmaşıqlı aynabənd”, R.Rzanın “İkicildliyi”, M.Cəlalın “Seçilmiş əsərləri” haqqında məqalələr yazıb. Ş.Salmanov da onun bu məqalələrini ilk yaradıcılığından fərqləndirib, həmin əsərlərdə müəyyən təhlil səriştəsi və səviyyəsi, professionallıq olduğunu, peşəkar tənqidçiyə məxsus olan keyfiyyətləri xüsusi nəzərə çatdırıb.

Bundan sonra B.Nəbiyev 1950-ci illərdə ədəbi tənqidə gələn şəxsiyyətlərin haqqında, o dövrün ictimai-ədəbi mühiti ilə bağlı konkret fikirlər səsləndirib. Əlavə edib ki, bu dövrdə də tənqiddə ədəbi prosesin marksist-leninçi təhlili əsas prinsip kimi götürülürdü. Bu təsir B.Nəbiyevin 1950-ci illərdəki ədəbi-elmi fəaliyyətində özünü göstərirdi. Bəzən tənqidçi öz əsərində mövzu və ideyanı müəyyən etməklə kifayətlənir, ehkam və yasaqlardan uzaqlaşmağa çətinlik çəkirdi. Şamil Salmanov buna iradlarını bildirməklə yanaşı, əlavə edirdi ki, *“Realist və demokratik tənqidin, estetik fikrin ənənə və dəyərlərinin varisi kimi çıxış edən sovet tənqidinin də özünəməxsus dəyərləri vardır ki, tənqid tariximizi, yaxud bu dövrlərdə fəaliyyət göstərmiş hər hansı tənqidçinin yaradıcılığını, görüşlərini tədqiq edərkən bu dəyərləri mütləq nəzərə almaq və qiymətləndirmək lazımdır”* (1, s. 24).

“Tənqidçi və ədəbi proses” monoqrafiyasında B.Nəbiyevin tənqidin yüksək vəzifələrinə və prinsiplərinə necə yanaşması ədəbi-tarixi və nəzəri planda tədqiqata gətirilib. Araşdırmadan məlum olur ki, o ancaq bədii əsərlərin müsbət cəhətlərini göstərməklə kifayətlənmir, ədəbi prosesə tənqidi münasibət bəsləyir, mənfi cəhətləri, nöqsanları da aradan qaldırmağın yollarını müəyyənləşdirirdi. Ancaq bu da hələ ədəbi tənqidin öz missiyasını ləyaqətlə yerinə yetirməsi demək deyil. Ola bilsin ki, ədəbiyyat, bədii proses siyasi-ideoloji mahiyyət daşısın, hansısa bir siyasi cəmiyyətin mənafeyinə xidmət etsin. Tənqid isə bütün mənafelərin siyasi

hadisələrin fövqündə dayanmalı, ancaq ədəbi siyasətə tərəfkeş olmalıdır. Rahid Ulusel bu cəhətdən doğru qeyd edir: *"Tənqid, çağının ədəbi ideologiyasını yaradaraq, həmin ictimai maraq sferasında yer tuta, ona təsir edə və onun dinamikasını təmin edə bilər. Fəqət tənqid hazırkı durumunda göstərilən funksiyalarının heç birini sanballı səviyyədə yerinə yetirə bilmir. Müəyyən istisnaları nəzərə almaqla demək olar ki, o, sadəcə olaraq, özünün yayğın, tərəddüdlü, oturuşmamış mövqeyində "tənqid" rolunu imitasiya edir. Sanki bu tənqid üçün bütöv Azərbaycan ədəbiyyatı, ədəbi proses, onun dinamikası yox, ayrı-ayrı görüntüləri var. Tənqidinsə başlıca vəzifəsi, öncə qeyd etdiyimiz kimi, ədəbi prosesi - ədəbi orqanizmə çevirməkdən ibarətdir. Bu - o demək deyil ki, ədəbiyyat və onun inkişafı tənqid vasitəsilə qəlibləşdirilir, o deməkdir ki, onun hətta ziddiyyət təşkil edən, müstəviləşməyən tərəflərinin harmoniyası, uyarlığı tapılır, strukturu, morfologiyası müəyyənləşdirilir..."* (3, s. 140).

Rahid Uluselin burada qeyd etdikləri bütövlükdə sovet ədəbi tənqidinə, o cümlədən B.Nəbiyevin tənqid irsinə aid edilə bilər. Ancaq obyektiv prinsipləri nəzərə alaraq, deməliyik ki, sovet dövründə ədəbi tənqidin ədəbi prosesi bütövləşdirməyə nail olması mümkün deyildi, onu ədəbi orqanizmə çevirmək imkanı yox idi. Bəkir Nəbiyevin 1950-ci illərdəki tənqidi irsinə Şamil Salmanov bu nöqteyi-nəzərdən yanaşır, həmin dövr tənqidinin bədiilik anlayışının məhdud və sxematik olduğunu göstərirdi. Belə ki, ədəbi tənqidin dəyərləndirmə meyarlarına mənfi təsir hiss olunurdu. Həmin nöqsanlar Bəkir Nəbiyevin ədəbi-tənqidi yaradıcılığında da özünü göstərirdi. Bundan uzaqlaşmaq, kənar dayanmaq da mümkün deyildi. Şamil Salmanov bunu da nəzərə çatdırırdı ki, bu cür nöqsanlar B.Nəbiyev yaradıcılığında uzun müddət davam etmir, tədricən aradan qaldırılır, obraz, ideya, mövzu anlayışı getdikcə genişlənir.

Şamil Salmanov yazıçı yaradıcılığını kompleks şəkildə təhlil etmək və bu yolla onun yaradıcılığına təsir etmək xüsusiyyətlərinin B.Nəbiyev ədəbi-tənqidi fəaliyyətinin ilk mərhələsi üçün səciyyəvi cəhət olduğunu da unutmur. Fikrini təsdiq etmək üçün həmin illərdə qələmə alınan "Rəsul Rzanın ikicildliyi", "Mir Cəlalın seçilmiş əsərləri", "Şeirimizi günün tələbləri səviyyəsinə qaldıraq" məqalələrini nümunə kimi göstərir. Tənqidçinin qeyd etdiyi kimi, birinci məqalə R.Rzanın 1955-1956-cı illərdə nəşr olunan ikicildliyini əhatə edir. Şairin 25 illik bədii yaradıcılığının yekunu olan bu kitabda R.Rza yaradıcılığının sonradan qüvvətlənəcək, dərinləşəcək yeni meylləri özünü göstərdi ki, B.Nəbiyev bütün bunları tənqidçi fəhmi ilə vaxtında görüb qiymətləndirməyi bacarmışdı. B.Nəbiyevin zəngin və çoxcəhətli elmi-nəzəri fəaliyyətində bu xüsusiyyətləri həssaslıqla müşahidə edib araşdıran Şamil Salmanov qənaətlərini ümumiləşdirərək yazır: *"Beləliklə, belə nəticəyə gələ bilərik ki, B.Nəbiyevin ilk məqalələri onun özünün çətin janr hesab etdiyi bu yaradıcılıq aləminə istedadlı, ədəbiyyata, ədəbi prosesə ürəklə xidmət etmək istəyən bir gənc tənqidçinin gəldiyini xəbər verirdi. Ədəbiyyatın inkişafını izləməsi və bu inkişafı tənqidin anlayış və kateqoriyalarında ifadə etməyə çalışması tənqidçinin müəyyən professional vərdişləri mənimsədiyini göstərirdi"* (1, s. 27).

**Məqalənin aktuallığı.** Şamil Salmanovun elmi-ədəbi irsini araşdırmaq, sovet dövrü ədəbi-tarixi prosesinin problem və istiqamətlərini tədqiq etmək, yeni ədəbi-tarixi mərhələyə - müstəqilliyə keçidin şərtləndirdiyi reallıqları dərk etmək baxımından aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Şamil Salmanov tərəfindən tənqidçi şəxsiyyətinin əsas vəzifələri və ədəbi tənqid tarixində rolu təhlil predmeti kimi götürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali məktəb müəllim və tələbələri üçün Azərbaycan ədəbiyyatı tarixi, müasir ədəbi proses və ədəbi tənqid fənlərinin tədrisində köməkçi vəsait kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Salmanov Ş.M. Tənqidçi və ədəbi proses (Akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri). Bakı: Səda, 2001, 155 s.
2. Qarayev Y.V. Ömrün və taleyin yeddi on ili... // Salmanov Ş.M. Tənqidçi və ədəbi proses (Akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri). Bakı: Səda, 2001, s. 3-6.
3. Ulusel R.S. Müasir Azərbaycan tənqidi. Bakı: Elm, 2009, 184 s.
4.Yusifoğlu R.Y. Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri. Bakı: Elm və təhsil, 2016, 368 s.
5.Nəbiyev B.Ə. Seçilmiş əsərləri. İstiqlal şairi. (5 cilddə), c. 3. Bakı: Çinar-Çap, 2009, 616 s.

**Р.Г. Зейналова**

## Личность критика как предмет исследования Шамиля Салманова

## Резюме

Выдающийся литературовед и критик Шамиль Салманов заявляет о том, что в завоевании престижа критики в литературном процессе велика роль критика как личности и его научно-теоретического уровня. Ученый, подчеркивая научно-литературное и критическое наследие Бекира Набиева, который в достаточной мере отличается своим индивидуальным творческим стилем в литературном процессе и литературоведении, систематизирует и раскрывает монографию «Критик и литературный процесс (литературно-научная деятельность и критические взгляды академика Бекира Набиева)» как серьезное и значимое исследование.

В монографии говориться о деятельности Бекира Набиева как литературоведа, так и критика. Объектом исследования является не только его индивидуальная творческая манера, индивидуальный стиль, но и непосредственный литературный процесс в целом, а так же анализируется деятельность критика в рамках литературного процесса.

**R.H. Zeynalova**

## Shamil Salmanov's critical personality as a subject of research

## Summary

An outstanding literary specialist and critic Shamil Salmanov regarded the role of the critic's personality, his scientific and theoretical level as essential while gaining the authority of criticism in the literary process. The scientist systematized the monograph "Critic and literary process (literary and scientific activity, as well as critical views of academician Bakir Nabiyev)" as a solid research work by emphasizing the scientific, literary and critical heritage of Bakir Nabiyev, who was distinguished in the field of our literary criticism and literary history by his individual style.

The monograph elucidates B.Nabiyev's work as both a literary specialist and critic. The object of investigation here is not only his individual creative manner, individual style, but it is also direct analysis of the activities of the critic in the literary process.

**Redaksiyaya daxil olub:** 30.03.2021